# “Doğma Qarabağımızı ən qısa zamanda əsl cənnətə çevirəcəyik”

**Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradaraq, parlaq qələbə ilə ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq bu şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə olundu. Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi “Dəmir yumruq” əməliyyatı dünya hərb tarixinə düşərək, hazırda aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.**

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər paradı isə Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirdi.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını aldı, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Yeri gəlmişkən, müharibə getdiyi 44 gün ərzində işğalçı Ermənistan nəinki cəbhəyanı bölgədə olan şəhərlərimizi, kəndlərimizi hədəfə aldı, eyni zamanda, döyüş bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrimizi atəş altında saxladı. Düşmən azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq və onları didərgin salmaq məqsədilə qəsdən ağır artilleriya, ballistik raketlər, ağ fosfor və kasetli sursatlardan istifadə etdi.

Burada bir məqamı da xatırlatmaq istərdik. Ermənistanın Azərbaycanın müharibə gedən ərazilərindən kənar kəndlərdə, vətəndaşların sıx cəmləşdiyi şəhərlərdə dinc əhaliyə qarşı törətdiyi qanlı terror təxribatı, yaşanan faciələr, insan itkiləri insanlarımızı sındırmırdı, xalqımızı, ordumuzu haqq, ədalət savaşından çəkindirmirdi. Azərbaycan xalqı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və ordumuzun ətrafında getdikcə sıx birləşir, hər gün verilən qələbə xəbərləri insanlarda yüksək ovqat yaradır, mübarizə əzmini artırırdı. Düşmən özü də tamamilə darmadağın olacağını, Azərbaycan Ordusunun mərhəmətinə möhtac qalacağı günün tezliklə gələcəyini yaxşı bilirdi.

Beləliklə, dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Azərbaycan Prezidenti müdrik siyasəti, qətiyyəti ilə status-kvonu ləğv etdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi. Vətən müharibəsində möhtəşəm qələbəmiz həm də Ermənistanı sosial-iqtisadi tənəzzülə, mənəvi-psixoloji duruma gətirib çıxardı, ölkədə daxili qarşıdurma pik həddə çatdı.

Bu haqq savaşı, eyni zamanda, Ermənistanın vandal, anti-demokratik bir dövlət olduğunu, faşist ideologiyasına xidmət etdiyini bütün dünyaya göstərdi. Şəhər və kəndlərimiz düşməndən təmizləndikcə, bütün yaşayış məntəqələrimizin barbarcasına dağıdıldığı, infrastrukturdan əsər-əlamət qalmadığı, maddi-mədəniyyət abidələrimizin izinin belə silindiyi, qəbiristanlıqlarımızın belə təhqirə məruz qaldığı üzə çıxdı. Bütün bunlarla bərabər, işğaldan azad edilən ərazilərin boşaldılması zamanı da Ermənistan tərəfindən rayonlarımızda illərlə aparılan qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrinin düşmən ölkəyə daşınılması faktı aşkarlandı. Arxeoloji eksponatların oğurlanması, İrəvana aparılması təsdiqləndi.

Düşmən bununla kifayətlənməyərək, işğaldan azad edilən ərazilər boşaldılarkən, həmin yerlərdə maddi-mədəniyyət nümunələrimizi dağıtmaqla bərabər, torpaqları minalamaqdan, yaşayış məntəqələrindən çıxarkən meşələri və evləri yandırmaqdan, hətta məktəblərə belə od vurmaqdan çəkinmədi.

Ermənistanın ölkəmizə qarşı bu cür vəhşiliyi, barbarlığı heç də təsadüfi deyildi. Düşmən əzəli-əbədi tarixi torpaqlarımızdan, necə deyərlər, iz-tozumuzu silməklə işğalçılıq siyasəti ilə əldə etdiyi ərazilərimizin unudulacağını, əsl sahiblərinin bir daha bu yerlərə dönməyəcəklərini düşünürdü. Dövlətimizin başçısının vurğuladığı kimi, “onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda… Bütün buraları bərpa edəcəyik. Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq”.

Qarabağın bərpası dövlətimizin başçısının “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında sərəncamı ilə müəyyənləşdirilən əsas hədəflər sırasında xüsusi yer alıb. Belə ki, növbəti 10 il üzrə inkişafımızın bundan sonrakı mərhələsi üçün yol xəritəsi sayılan bu sənədə görə, beş prioritetdən birində məhz düşməndən təmizlənən ərazilərə əhalinin qayıdışının daha intensiv formada reallaşdırılması, məskunlaşmanın dayanıqlığı və nəhayət, məskunlaşmış ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası nəzərdə tutulub.

Qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair həmin beş milli prioritet sırasında işğaldan azad olunan ərazilərə böyük qayıdışın reallaşdırılması, Qarabağın dirçəlişinə nail olunması vəzifəsi xüsusi yer tutur. Bununla əlaqədar “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də deyilir: “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir”.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də Qarabağın dirçəlişinin reallaşdırılması ilə bağlı qeyd edilir ki, əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını gerçəkləşdirmək mümkündür.



*Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu prioritetin uğurla reallaşdırılması üçün isə dayanıqlı məskunlaşmanın aparılması və iqtisadi fəaliyyətə reinteqrasiyanın həyata keçirilməsinə nail olunmalıdır.

Artıq ölkədə bu istiqamətdə tədbirlərə başlanılıb. İşğaldan azad edilən ərazilərdə mülki idarəetmənin düzgün, çevik və səmərəli şəkildə həyata keçirilməsi məqsədilə dövlətimizin başçısı yanvarın 19-da imzaladığı fərmana əsasən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri institutu təsis olunub, fevralın 4-də imzaladığı fərmana əsasən isə xüsusi nümayəndəliklər haqqında Əsasnamə təsdiqlənib.

Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərimizin minalardan təmizlənməsini Qarabağın dirçəldilməsinə başlanan ilk gündən diqqətdə saxlayıb. Dövlətimizin başçısı fevralın 4-də Vüqar Süleymanovu Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən, bu barədə deyib: “Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik…”.

Hazırda Minatəmizləmə Agentliyi minatəmizləmə əməliyyatlarında həm Türkiyə istehsalı olan avadanlığa üstünlük verir, həm də Avropanın aparıcı şirkətlərinin məhsullarından istifadə edir. Qardaş ölkənin minatəmizləyənləri artıq Qarabağda mina və partlamamış hərbi sursatın təmizlənməsi ilə məşğul olur. Rusiya da bu fəaliyyətlərdə iştirak edir.

Qarabağın bərpası istiqamətdə qəbul edilən digər mühüm qərarlardan biri də Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə düşməndən təmizlənən ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə “Qarabağ Dirçəliş Fondu”nun yaradılmasıdır. Xatırladaq ki, bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində, habelə ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Bərpa prosesində Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzinin mexanizminin tətbiqi imkanlarından da yararlanmaq nəzərdə tutulub. Həmçinin hazırda həmin torpaqlarda biznes qurmaq istəyən sahibkarların biznes layihələrinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyində baxılması qərara alınıb.

Bütün bunlarla bərabər, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən işğaldan azad edilən ərazilərdə əvvəllər mövcud olmuş və tamamilə dağıdılmış enerji güclərinin bərpası istiqamətində müvafiq istiqamətdə işlər aparılır.

İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi başa çatandan sonra kritik yol xətlərinin bərpasına başlanacaq. Bu, yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması prosesi isə insanların həyat səviyyəsinin yaxşılaşmasına və sonrakı mərhələdə iqtisadi baxımdan ailə-ev təsərrüfatlarının canlanmasına töhfə verəcək.

İlkin sosial-iqtisadi inkişafın vacibliyi postkonflikt dövrdə insanların mərhələli şəkildə köçürülməsinə və yardım asılılığından qısa zamanda azad olmalarına gətirib çıxarır. Belə halda isə təhsil, səhiyyə və telekommunikasiya obyektlərinin koordinasiyalı bərpası insanların adaptasiya prosesini sürətləndirir. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, bilavasitə ev təsərrüfatlarının inkişafına səbəb olacaq təşəbbüslərin artırılması məqsədəuyğun sayılır. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank və turizm sektorlarına da xüsusi diqqət göstərilməsi mühüm önəm daşıyır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, tezliklə Azərbaycanın dogma yurd-yuvasından aralı düşən hər bir vətəndaşı öz tarixi torpağında yaşayacaq, qurub- yaradacaq. Amma bugünkü tarix heç vaxt unudulmayacaq. Bu dağılmış, yandırılmış evlər, viran qoyulmuş kənd və şəhərlər erməni vəhşiliyinin canlı şahidlərinə çevriləcək. Bu evlərdə, bu şəhərlərdə yaşayacaq insanlarımızın Vətən sevgisi ilə hər qarış torpağımız tez bir zamanda canlanacaq, yurd yerlərimiz gülüstana çevriləcək.

*Vaqif BAYRAMOV,*
*“Xalq qəzeti”*